**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№286/1** **31 mart 2017-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2016-ci il üzrə fəaliyyətinin yekunları barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2016-cı il üzrə fəaliyyətinin yekunlarına dair hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının 2016-cı il üzrə fəaliyyətinin yekunlarına dair hazırlanmış hesabat bəyənilsin (əlavə olunur) və Auditorlar Palatasının fəaliyyəti qənaətbəxş hesab edilsin.
2. Auditorlar Palatasının 2016-cı il üzrə fəaliyyətinin yekunlarına dair hesabatın iki həftə müddətində nəşr olunması, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına və aidiyyatı qurumlara təqdim edilməsi məqsədəmüvafiq hesab edilsin.
3. Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramova, sədrin müşaviri F.Qarayevə, sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova tapşırılsın ki, Auditorlar Palatasının 2016-cı il üzrə fəaliyyətinin yekunlarını əks etdirən hesabatın ictimaiyyətə açıqlanması məqsədilə Palatanın internet səhifəsində yerləşdirilməsini və bir ay müddətində həmin hesabatın qısa icmalının "İqtisadiyyat" qəzetində və digər KİV-də dərc etdirilməsini təmin etsinlər.
4. Auditorlar Palatası sədrinin müşaviri F.Qarayevə və Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova tapşırılsın ki, Auditorlar Palatasının 2016-cı il üzrə fəaliyyətinin yekunlarına dair hesabatın iki ay müddətində ingilis və rus dillərində tərcüməsinin hazırlanıb Palatanın üzv olduğu Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC), Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) göndərilməsini və Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.
5. Auditorlar Palatasının struktur bölmələrinin rəhbərlərinə (Q.Bayramov, N.Talıbov, F.Qarayev, M.Abbasov, S.Gülməmmədov, V.Rəhimov, M.Hüseynova, Y.Namazəliyev, R.Cəfərli) tapşırılsın ki, 2017-ci il üzrə iş planlarında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**